# "Azərbaycanın günəş və külək enerjisinin inkişafı üçün gözəl imkanları var "

AZƏRTAC Kiprin enerji konsaltinq şirkəti "e-CNHC"nin baş direktoru Çarlz Ellinas ilə olan müsahibəni təqdim edir.

*- 2024-cü ildə Azərbaycan bərpaolunan enerji mənbələrinin payını artırmaq üçün hansı əsas addımları atıb və 2030-cu ilə qədər 30 faiz hədəfinə çatmaqda beynəlxalq tərəfdaşlarla həyata keçirilən hansı yeni layihələr həlledici rol oynayacaq?*

- 2024-cü ildə Azərbaycan enerji balansını şaxələndirmək və istixana qazı emissiyalarını azaltmaq məqsədilə bərpaolunan enerji sektorunda əhəmiyyətli irəliləyiş əldə edib. Elektrik enerjisi istehsalında bərpaolunan mənbələrin tətbiqi 2023-cü illə müqayisədə 80 faiz artaraq ümumi həcmin 14 faizini təşkil edib. "Masdar", bp və "ACWA Power" kimi beynəlxalq şirkətlərlə bağlanan müqavilələr ölkənin 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəfinə nail olunmasında mühüm rol oynaya bilər.

*- "Green Energy Corridor Power Company"nin (GECO) yaradılması, Qara dənizdən sualtı kəmərin çəkilməsi Avropanın enerji təhlükəsizliyinə necə təsir göstərəcək və "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycanın qaz ixracını ikiqat artırmaq üçün hansı maneələr mövcuddur?*

- Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstan kimi qonşu ölkələrlə əməkdaşlıq çərçivəsində "Green Energy Corridor Power Company" adlı enerji şirkətini yaradıb. Bu şirkət Avropa İttifaqının enerji resurslarını şaxələndirmə təşəbbüsü çərçivəsində Azərbaycanı Avropa ilə birləşdirəcək 1100 kilometr uzunluğunda sualtı boru kəməri inşa etməyi planlaşdırır.

Bundan əlavə, Azərbaycan Avropaya "Cənub qaz dəhlizi" vasitəsilə qaz ixracını ikiqat artırmaq imkanları ilə bağlı danışıqlar aparır. Xüsusilə, Rusiyanın Ukrayna üzərindən Avropaya qaz tədarükünün dayandırılması fonunda bu məsələ aktuallaşıb. Lakin bunun üçün Avropanın enerji şirkətləri uzunmüddətli qaz tədarük müqavilələri bağlamalıdır.

*- Azərbaycanda bərpaolunan enerjinin inkişafına hansı əsas amillər təsir göstərir?*

- Azərbaycan günəş və külək enerjisinin, o cümlədən Xəzər dənizində külək enerjisi layihələrinin inkişafı üçün böyük potensiala malikdir. Bərpaolunan enerji mənbələrinin genişlənməsinə töhfə verən əsas amillər vergi güzəştləri, tənzimləyici islahatlar, eləcə də güclü dövlət dəstəyi və siyasətidir. Qaradağ Günəş-Elektrik Stansiyası və Xızı-Abşeron Külək-Elektrik Stansiyası kimi layihələr qlobal səviyyəli nümunələrdir və Azərbaycanın bərpaolunan enerjinin inkişafına sadiqliyini nümayiş etdirir. Azərbaycanın regional əməkdaşlığı və beynəlxalq tərəfdaşlığı təşviq etməkdəki uğurları onu bərpaolunan enerji mənbələri sahəsində bölgənin liderinə çevirmək potensialını vurğulayır.

*- Beynəlxalq əməkdaşlıq yaşıl texnologiyaların inkişafına və investisiyaların cəlb olunmasına necə kömək edir?*

- Azərbaycanın bol bərpaolunan enerji ehtiyatları onun enerji iqtisadiyyatını şaxələndirməyə, neft və qaz hasilatını və ixracını tamamlamasına kömək edə bilər. Onun Avropa və Asiya arasında strateji mövqeyi, eləcə də "Yaşıl Enerji" dəhlizi kimi layihələr ölkənin bərpaolunan enerji mərkəzinə və ixracatçısına çevrilməsi üçün unikal imkanlar yaradır. Beynəlxalq şirkətlərlə əməkdaşlıq isə xarici investisiyaların cəlb olunmasına və ölkədə yaşıl texnologiyalar sahəsində yerli təcrübənin inkişafına töhfə verə bilər.

*- Azərbaycan regional və qlobal iqtisadi əməkdaşlığı gücləndirmək məqsədilə bərpaolunan enerji, texnologiyalar və innovasiyalar sahəsində hansı addımları atır?*

- Azərbaycan öz strateji mövqeyindən, enerji resurslarından və inkişaf etmiş infrastrukturundan istifadə edərək qonşu ölkələrlə və beynəlxalq tərəfdaşlarla enerji, ticarət və texnologiya sahələrində iqtisadi əməkdaşlığı genişləndirə bilər. Bu, onun regional və qlobal təsirini gücləndirərək qarşılıqlı iqtisadi artıma və davamlı inkişafa töhfə verəcək. Davamlı enerjiyə keçid, xüsusilə bərpaolunan enerji mənbələri, "yaşıl" hidrogen, enerji saxlanması texnologiyaları, eləcə də sənaye və infrastruktur inkişafı sahəsində yeni perspektivlər açır. Əlavə imkanlar bərpaolunan və "yaşıl" texnologiyaların təkmilləşdirilməsi, enerji effektivliyinin artırılmasına yönəlmiş texnologiyalar və innovasiyalar sahəsində yaranır.

*- Azərbaycanın daxili istehlak və ixrac üçün enerji balansını şaxələndirmək hansı üstünlükləri gətirəcək?*

- Azərbaycan, günəş panelləri, külək turbinləri, enerji saxlama sistemləri üçün komponentlərin istehsalı, eləcə də "yaşıl" hidrogen, ekoloji təmiz tikinti materialları və bərpaolunan enerji avadanlıqlarının istehsalı və ixracı kimi yeni sahələrin və sənaye klasterlərinin inkişafı üçün əhəmiyyətli potensiala malikdir. Bu imkanların həyata keçirilməsi dövlətin cazibədar stimullar, vergi güzəştləri və aşağı faizli maliyyələşdirmə proqramlarını tətbiq etməsini tələb edəcək. Əlverişli şərait sayəsində Azərbaycan öz enerji balansını həm daxili tələbat, həm də ixrac üçün effektiv şəkildə şaxələndirə bilər. Bu, dayanıqlı iqtisadi artıma, ənənəvi enerji resurslarına asılılığın azaldılmasına və ölkənin "yaşıl" texnologiyalar sahəsində regional lider mövqeyinin güclənməsinə töhfə verəcək.

Azərbaycan. - 2025.- 19 mart (№ 60).- S.8.